# Azərbaycan xalqının yüksək mənəviyyatı hər şeydən ucadır

(Əvvəli 5-ci səhifədə).

Bu gün əminliklə demək olar ki, Azərbaycan Xalq Cümhuriyyəti yaradicılarının ideyalarında yaşatdıqları müstəqil hüquqi, demokratik, dünyəvi dövlətin təşkili məhz ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda respublikaya qaydışından sonra mümkün olmuşdur.

İstər Azərbaycan Xalq Cümhuriyyəti yaradıcılarının, istərsədə ulu öndər Heydər Əliyevin müstəqil dövlətçilik məsələləri ilə bağlı arzuları Prezident İlham Əliyev tərəfindən uğurla gerçəkləşdirilir.

28 may Respublika gününün 95-ci il dönümü ilə bağlı Qəbələ rayon Heydər Əliyev Mərkəzində də "Azərbaycan xalqının yüksək mənəviyyati hər şeydən ucadir" adlı tədbir keçirilmişdir. Tədbirdə 3 sayli və 5 saylı orta məktəblərin tarix müəllimləri və şagirdləri, iştirak etmişdir. Ekspozisiya zalında təşkil edilmiş tədbirdə ilk öncə Respublika Günü ilə bağlı məlumat verildi. 3 saylı məktəbin tarix müəllimi Rəsulova Məleykə çıxış edərək bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin uğurla davam etdirildiyini, bu sahədə qazanılmış nailiyyətlərin qürur doğurduğunu, Respublikamızda siyasi, iqtisadi və sosial islahatların uğurla həyata keçirildiyini, ölkə iqtisadiyyatının dönmədən inkişaf etdirildiyini, əhalinin sosial müdafiəsinin gücləndirilməsi üçün təsirli tədbirlər görüldüyünü vurğuladı.



Tədbirin sonunda şagirdlər şer kompozisiyası ilə çıxış etdilər

**Kəmalə QASIMOVA,**
**baş fond mühafizi.**

# İkinci beynəlxalq «Qəbələ kuboku» turniri

Mayın 29-da starta çıxan 15 yaşlı futbolçulardan ibarət komandalar arasında ikinci beynəlxalq «Qəbələ kuboku» turniri, şübhəsiz, azarkeşlərin böyük marağına səbəb olub. Kubok uğrunda mübarizədə güclü futbol dövlətlərini təmsil edən klubların adları bu fikri inamla təsdiq edir: «Barselona» (İspaniya), «Beşiktaş» (Türkiyə), «Şaxtyor» (Ukrayna), «Portu» (Portuqaliya), «Zenit» (Rusiya), «Feyenoord» (Hollandiya).




Bu məşhur komandaların usta futbolçularının yaxın ehtiyat qüvvəsi olan 15 yaşlılar, eləcə də Topaz Premyer Liqasının iddalı klublarından biri sayılan "Bakı"nın yeniyetmə futbolçuları "Qəbələ"dəki yaşıdlarının qonağı olacaq, özlərinin yaddaqalan oyunları və əsl qələbə əzmi ilə azarkeşlərə xoş anlar yaşadacaqlar.



Püşk nəticəsində rəqiblər iki qrupa bölünmüşlər. "Qəbələ" birinci qrupda "Barselona", "Şaxtyor" və "Beşiktaş"la rəqabət aparacaq, ikinci qrupa isə "Bakı", "Portu", "Zenit" və "Feyenoord" daxildirlər.

15 yaşadək futbolçuların mübarizə apardığı II "Qəbələ Kuboku"nun açılış mərasimi keçirilib. Öncə bütün komandalar stadiona toplaşan tamaşaçılara bir-bir təqdim olunub. Mərasim "Qəbələ" Futbol Klubunun prezidenti Tale Heydərovun açılış nitqi ilə davam edib. O, iştirakçıları salamlayıb, onlara uğurlar arzulayıb.

II Qəbələ Kubokuna son oyun günündə yekun vurulub. Və turnirin son – final oyununda «Portu» və «Feyenoord» qarşılaşıb. Matçın əsas vaxtı 2:2 hesab ilə başa çatdığından qalib penalti seriyasında müəyyənləşib. Bu zaman 4:2 hesablı qələbə qazanan Portuqaliya klubu II Qəbələ Kubokunun qalibi olub. Fərqlənən futbolçulara xatirə hədiyyələri, qalib komandalara isə kubok və medallar təqdim olunub.

**Fotolar S. Umuyevindir.**

# 1 iyun-Uşaqların Beynəlxalq Müdafiəsi Günü

Hər tərəf bayram libasına bürünmüşdü. Ətraf gül çiçəklərlə, rəngbərəng şarlarla bəzədilmişdi. Uşaqların sevincinin həddi-hüdudu yox idi.

Qəbələ Rayonu Cavid Yusifov adına Uşaq Yaradıcılıq Mərkəzi istedadlı uşaqların iştirakı ilə bayram konserti təşkil etmişdi. Tədbirdə RİH-nin, RTŞ-nin nümayəndələri iştirak edirdilər.



Tədbiri giriş sözü ilə mərkəzin direktoru Rəfiqə Şirinova açdı. O, uşaq haqları haqqında məlumat verdi. Sonra söz tədbirin aparıcıları, dərnək üzvüləri, IX sinif şagirdləri Orxan Şirinbəyli və Aytac Mirzəhüseynliyə verildi. Tədbir UYM-nin rəqs qrpununun ifasında «Azərbaycan» rəqsi ilə başladı.

Tədbirdə UYM-nin «Təbəssüm» rəqs qrupu, İncəsənət məktəbinin instrumental ansamblı, müxtəlif bağçaların fidanları, şəhər 3 saylı tam orta məktəbin rus bölməsinin 1 sinfinin rəqs qrupu, UYM-nin oğlanlardan ibarət rəqs kollektivi, qızların ifasında milli və xarici ölkə rəqsləri, bədii-qiraət dərnəyinin üzvülərinin ifasında şerlər böyük maraqla dinlənildi.

Rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova və RTŞ metokabinetinin müdiri Arifə Bayramova uşaqları salamlamış, onlara xoş gələcək, aydın səma arzulamışlar.

Tədbirin sonunda imkansız, əlil uşaqlara Respublika Uşaq Fondunun Qəbələ rayon filialı tərəfindən hədiyyələr təqdim edilmişdir.

# Qəbələnin qonaqları

Azərbaycanın Fransadakı səfirliyinin təşəbbüsü ilə bu ölkənin Kolmar şəhərinin meri Jilber Meyerin başçılıq etdiyi nümayəndə heyəti tanışlıq məqsədi ilə Qəbələ rayonunda olmuşlar. Nümayəndə heyətinə Qəbələ şəhərinin tarixi, rayonda sosial-iqtisadi inkişaf proqramı çərçivəsində həyata keçirilən müxtəlif layihələrdən və bütün sahələrdə nəzərə çarpan uğurlardan haqqında ətraflı məlumat verilmişdir. İlk öncə nümayəndə heyəti «Beltmann» piano fabrikində istehsal prosesini yaxından izləmiş, burada istehsal olunmuş məhsulların sərgisinə baxış keçirmişlər. Daha sonra turizm və istirahət məkanları ilə yaxından tanış olan qonaqlara, buraya dincəlmək üçün gələn insanların şən və mənalı istirahəti üçün yüksək səviyyədə şərait yaradıldığı diqqətlərinə çatdırılmışdır. Turizm sektoru ilə yaxından maraqlanan



nümayəndə heyəti «Tufan» dağ-xizək yay-qış istirahət kompleksinə də baxış keçirmişlər. Rayonun tarixi mədəniyyət abidələri ilə də yaxından maraqlanan Jilber Meyerin başçılıq etdiyi nümayəndə heyəti Nic qəsəbəsindəki alban məbədinə də baxış keçirmişlər. Rayonla tanışlıqdan zövq alan nümayəndə heyəti Qəbələ rayonunun gözəl bir məkan olduğunu bildirmişlər.